

Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

May 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AVROPAYA TƏCHİZAT 2021-Cİ İLDƏKİ 8 MİLYARD KUBMETRDƏN BU İL 12 MİLYARD KUBMETRƏ QƏDƏR QALXACAQ.

Azərbaycan öz təbii qazını Avropa məkanına etibarlı yollarla nəql edir. Avropaya təchizat 2021-ci ildəki 8 milyard kubmetrdən bu il 12 milyard kubmetrə qədər qalxacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim planlarımızda 2027-ci ilin sonuna qədər təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi məsələsi dayanmışdır və mən hesab edirəm ki, biz buna nail olacağıq.



Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN **Slovakiyanın Baş naziri ilə 07 may 2024-cü il tarixində keçirilən mətbuat konfransındakı bəyanatından**

# MÜNDƏRİCAT

2024 İXRAC İCMALI may


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

## 2024-cü ilin yanvar-aprel ayları ərzində 8,2 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-aprel aylarında qeyri-neft sektoru üzrə ixrac 920 milyon ABŞ dolları təşkil etmişdir

2024-cü ilin yanvar-aprel ayları ərzində Azərbaycanın ümumi ixracı **8,2 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə **920 milyon** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-aprel ayları ərzində yeyinti məhsulları üzrə ixrac **268,4 milyon** ABŞ dollarına bərabər olub.

2024-cü ilin dörd ayı ərzində pambıq ixracı 60,4%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 13,9%, meyvə-tərəvəz ixracı isə 11,9% artıb.

Carı ilin dörd ayı ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **16,2%** artaraq **288,4 milyon** ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər **12,7%** artaraq **84,2 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**78,3 milyon ABŞ** dolları) birinci olub. Bu

siyahıda pomidor (tomat) (**71,2 milyon ABŞ** dolları) ikinci, elektrik enerjisi (**47,6 milyon ABŞ** dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-aprel ayları ərzində Rusiya Federasiyasına **317,6 milyon ABŞ** dolları, Türkiyəyə **205,3 milyon ABŞ** dolları, Gürcüstana **80,1 milyon ABŞ** dolları, İsveçrə Konfederasiyasına **33,9 milyon ABŞ** dolları, Ukraynaya isə **29,1 milyon ABŞ** dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2024-cü ilin aprel ayının qeyri-neft ixracı **247,1 milyon ABŞ** dolları olub. Yeyinti məhsulları üzrə ixrac **10,2%** artımla **73,1 milyon ABŞ** dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **174 milyon ABŞ** dolları təşkil edib.

2024-cü ilin aprel ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**92,1 milyon ABŞ** dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**55 milyon ABŞ** dolları) ikinci və Gürcüstan (**20,2 milyon ABŞ** dolları) üçüncü olub.

2024-cü ilin aprel ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (tomat) (**26,1 milyon ABŞ** dolları) birinci, pambıq mahlıcı (**21,8 milyon ABŞ** dolları) ikinci və qızıl (**12,9 milyon ABŞ** dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may

2023 | 2024

**2023: 1,2 mlrd**



**2024: 920 mln**

# 2024-CÜ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may

2023 | 2024

**2023:** 275,4 mln



**2024:** 247,1 mln

## 2024-CÜ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)



Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

**288,4 mln $**

2023/2024 **+16,2%**



2023/2024 **+17,7%**

**204,2 mln $**

**84,2 mln $**

2023/2024 **+12,7%**

# 2024-CÜ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
| --- | --- | --- |
| Rusiya | 317,6 | 285,2 |
| Türkiyə | 205,3 | 405,4 |
| Gürcüstan | 80,1 | 142,6 |
| İsveçrə | 33,9 | 49,2 |
| Ukrayna | 29,1 | 27,3 |

# 2024-CÜ İLİN APREL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may



# 2024-CÜ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may

| | 2024 | 2023 |
|---|---|---|
| Pambıq mahlıcı | 78,3 | 38,3 |
| Tomat (pomidor) | 71,2 | 54,2 |
| Elektrik enerjisi | 47,6 | 313,7 |
| Meşə fındığı | 40,8 | 47,2 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 35,6 | 11,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 33,2 | 28,3 |
| Karbamid | 33 | 30,3 |
| Qızıl | 31,4 | 44,6 |
| İlkin formalı propilen sopolimerləri | 30,6 | 29,1 |

PE

# 2024-CÜ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may

| Mal | 2024 | 2023 |
| --- | --- | --- |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 29,2 | 27,3 |
| Metanol (metil spirti) | 29,2 | 31 |
| Xurma | 27,8 | 14,7 |
| İlkin formalı polipropilen | 21,2 | 44,2 |
| Alma | 20,3 | 17,8 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 16,8 | 27,4 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 $sm^3$-dən çox olan qığılcımla alışan DYM-li | 14,9 | 6,7 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 $sm^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 14,5 | 14,3 |
| Sement klinkerləri | 12,5 | 10,1 |

# 2024-CÜ İLİN APREL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may

| Mal | 2024 | 2023 |
| --- | --- | --- |
| Tomat (pomidor) | 26,1 | 23 |
| Pambıq mahlıcı | 21,8 | 7 |
| Qızıl | 12,9 | 18,9 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 12,8 | 4,7 |
| Polimerləşmədə ilkin formalı maddələr | 10,6 | 9,5 |
| Meşə fındığı | 9,2 | 10,2 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 8,5 | 3 |
| Elektrik enerjisi | 7,1 | 32,6 |
| Metanol (metil spirti) | 6,4 | 9,5 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Baku Steel Company” QSC, “P-Aqro” MMC, “Khan-El” MMC, Muradova Sahibə Səlimət qızı, “Mors Trading” MMC, “Sadromaks Co” MMC, “Technopack” MMC, “Binə Aqro” QSC, “Holcim” (Azərbaycan) ASC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azərenerji” ATSC, “Azəralüminium” MMC, “AzerGold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti MMC, “Azəripək” MMC “Azərbaycan Dəmir Yolları” QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2024-CÜ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
|---|---|---|
| ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 121,8 | 121,5 |
| "SOCAR Polymer" MMC * | 80,9 | 100,2 |
| "Azərenerji" ATSC | 47,3 | 313,5 |
| "Azəralüminium" MMC | 45,8 | 45,4 |
| "AzerGold" QSC ** | 22,9 | 27,7 |
| "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC | 17,8 | 6,1 |
| "Azərbaycan Hava Yolları" QSC | 2,5 | 4,2 |
| Naxçıvan MR Dövlət Energetika Xidməti | 312,3 min | 140,7 min |
| "Azəripək" MMC | 291,8 min | 727,1 min |
| "Azərbaycan Dəmir Yolları" QSC | 119,9 min | 1,1 |

* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") **6,4 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın **47 ölkəsinə 6,4 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos" xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2024-cü ilin aprel ayında isə "Azərkosmos" dünyanın **42 ölkəsinə 1,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-aprel ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **2 milyon ABŞ** dolları ilə Birləşmiş Krallıq, **1,3 milyon ABŞ** dolları ilə Lüksemburq, **455,2 min ABŞ** dolları ilə BƏƏ, **250 min ABŞ** dolları ilə Almaniya və **232,2 min ABŞ** dolları ilə Pakistan qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-APREL AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 6,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2024 İXRAC İCMALI may



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 2 mln $ | Birləşmiş Krallıq |
| 1,3 mln $ | Lüksemburq |
| 455,2 min $ | BƏƏ |
| 250 min $ | Almaniya |
| 232,2 min $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



**2024-cü ilin yanvar-aprel ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 755,9 milyon manatlıq əməliyyat aparılıb.**

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin yanvar-aprel aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **755,9 milyon manat**, yalnız mart ayında isə **210 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI may

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 144,6 | 210 |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **686,3 mln** | **696,5 mln** | **755,9 mln** |

Mərkəzi Bankın təqdim etdiyi statistika əsasında

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin may ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 33,5 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2024-cü ilin may ayı ərzində **190 müraciət** daxil olub. Müvafiq dövr ərzində **347 ədəd** sertifikat (139 ədəd mənşə, 195 ədəd fitosanitar, 13 ədəd CİTES) təqdim edilib.

2024-cü ilin may ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **33,5 milyon ABŞ** dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, dondurma, dondurma vaflisi, qaymaq, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, alma şirəsi, qarışıq şirələr, narşərab, duzlanmış qoyun bağırsağı, əridilmiş heyvan piyi, dekorativ “Budaqlı danaya” bitkisi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, tibbi zəli, meyvə və tərəvəzlərin ön soyutma avadanlığı, krem və Naftalanplast №3, fasad örtükləri,

inşaat kərpici, ferrosilisium, polad armatur yayması, polad borunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Belarus, Kanada, Rusiya, Türkiyə, Ukrayna, Türkmənistan, Almaniya, ABŞ, Avstriya, Moldova, Rumıniya, Yunanıstan, Niderland, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, BƏƏ, İran, Əfqanıstana üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN MAY AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI may



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)



**55,6%**

Fitosanitar sertifikatı

**40,4%**

Mənşə sertifikatı

**4%**

CİTES sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat